BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
№4 *Humanitar elmlər seriyası* 2015

**UOT 94 (479.24)**

# XIII – XIV ƏSRLƏR AZƏRBAYCANIN MUSİQİ TARİXİ (ingilisdilli tarixşünaslıq üzrə)

**B.N.QULİYEV**
***Bakı Dövlət Universiteti***
***bayramqulusoy@yahoo.com***

*XIII – XIV əsrlər Azərbaycan əraziləri monqol işğallarına və müxtəlif formalı dağıntılara məruz qalsa da, Azərbaycan mədəniyyəti öz inkişafının zirvəsinə çatmışdı. Mədəniyyətin ayrılmaz bir qolu olan və daim bir o qədər də nəzərə çarpmayan musiqi bu dövrdə önə çıxaraq inkişaf etmiş və görkəmli Azərbaycan musiqiçiləri meydana çıxmışdır. Azərbaycan musiqiçilərinin şöhrəti Azərbaycan sərhədləri ilə məhdudlaşmayıb, İraq, Mərkəzi Asiya, Yaxın Şərq və s. ərazilərə də yayılmışdı.*

**Açar sözlər:** Azərbaycan mədəniyyəti, Səfiəddin Urməvi, Əbdülqadir əl-Marağayi

XIII – XIV əsrlər Azərbaycan musiqisi məsələsi ümumi olaraq mədəniyyətə və tarixə dair tədqiqatların bir hissəsi olaraq araşdırılsa da indiyə qədər nə bütöv şəkildə, nə də müstəqil formada, nədə ki, ayrıca tədqiqat predmeti olaraq tədqiq edilməmişdir. Mövcud dövrə aid musiqiçilərin həyat və yaradıcılığı isə əsasən yerli, farsdilli və ərəbdilli qaynaqlar əsasında ayrı-ayrı şəkildə araşdırmaya cəlb olunmuşdur. Bu məsələnin ingilisdilli tarixşünaslıq əsasında öyrənilməsi ilk dəfədir və problem bu məqalə ilə araşdırılmağa cəhd olunmuşdur.

İngilisdilli tarixşünaslıqda bu məsələ birmənalı olaraq əks olunmamışdır. Əksər tarixçilər Azərbaycanda doğulmuş bu musiqiçiləri fars musiqiçisi və bu musiqini isə fars musiqisi adlandırmışdır ki, bunun da subyektiv olduğu qədər də obyektiv səbəbləri vardır. Ümumiyyətlə, ingilisdilli tarixşünaslıqda “Persia” (fars) kəlməsi iki kontekstdə əks olunmuşdur. Linqvistik və ərazi kontekstində. Əksər tarixçılər fars dilində yazmış bütün mütəfəkkir və alimləri fars mədəniyyətinin bir parçası kimi təqdim edirlər.

Məsələn, M.P.Saykes tərəfindən hazırlanan “Fars tarixi” (“A History of Persia”) kitabında məsələyə linqvistik yöndən yanaşır və digər mütəfəkkirlər ilə birlikdə Mövlana Cəlaləddin Rumi və Nizami Gəncəvi kimi şairlər türk olmalarına rəğmən fars şairi kimi göstərilir [1, 225-226]. Halbuki, bu iki

mütəfəkkir dövrün tələblərinə uyğun olaraq farsca yazsalar da onların fars şairi olmadığı dünyanın bir çox alimləri tərəfindən qəbul olunur [2, 577]. Kembric universiteti tərəfindən nəşr olunan "İran tarixi" ("The Cambridge History of İran") kitabında isə məsələ ərazı kontekstində göstərilib ki, bunun da əsasında avropalı alimlərin aldıqları antik coğrafiyaşünaslıq məlumatları ilə formalaşan biliklər dayanır. Ümumiyyətlə, avropalı alim və səyyahlar yanlışlığa yol verərək, əksər hallarda Dərbənddən İran körfəzinə qədər əraziləri "Persia" (fars) adlandırırlar. Ona görə də, Azərbaycanda doğulmuş və fəaliyyət göstərmiş elm və mədəniyyət adamları avropalı səyyah və alimlərin əsərlərində fars mədəniyyətinin bir parçası kimi göstərilib. Lakin bütün bunlara rəğmən elə həmin kitabın ədəbiyyat və poeziyaya aid olan fəslində ayrıca bir formada – Azərbaycan məktəbi başlığına rast gəlinir. Kitabın sözügedən fəslində, həmçinin Nizami Gəncəvinin Azərbaycan şairi olduğu da yer almaqdadır [2, 568-584].

İngilisdilli tarixşünaslıqda tarixçi və araşdırmaçıların bir qismi isə XIII-XIV əsrlər Azərbaycan musiqisini ərəb musiqisinin bir parçası kimi tədqiq etmişlər [5; 6]. Bu isə azərbaycanlı musiqiçilərin ərəb coğrafiyasına aid olan Bağdad və Qahirə kimi şəhərlərdə təhsil almaları və bu şəhərlərdə da yaradıcılıqla məşğul olmalarıdır. Digər bir səbəb isə əsərlərinin əksəriyyətini məhz ərəb dilində yazmaları ilə bağlıdır [3, 349-350; 10, 88, 313].

XIII-XIV əsrlərdə inkişafının ən yüksək zirvəsində olan Azərbaycan musiqisinin ən görkəmli nümayəndələri Səfiəddin Urməvi, Əbdülqadir əl-Marağayi və Qiyasəddin Qayibi kimi musiqiçilər Yaxın Şərqin məşhur musiqiçiləri idilər [10]. Bu dövrdə musiqi nəzəriyyəsi yaranmış, Azərbaycan muğamları təsnif edilmiş və yeni musiqi alətləri kəşf olunmuşdu.

Azərbaycanın görkəmli musiqiçisi Səfiəddin Abd-ul-Mömin bin Yusif bin Fağır al-Urməvi hicri tarixi ilə 613-cü ildə (1216) Urmiya şəhərində anadan olmuşdu. Məşhur musiqiçi alimin etnik mənşəyi və ana vətəni ilə bağlı ingilisdilli tarixşünaslıqda müxtəlif məzmunlu konsepsiya mövcuddur. Bir çox tədqiqatçılar Səfiəddin Urməvini fars musiqiçisi və etnik cəhətdən də fars adlandırırlar [5, 227-229; 6, 309-312]. Bəzi tədqiqatçılar isə onu ərəb mənşəli hesab etsələr də fars mənşəli olmasını da inkar etmir [11]. Lakin ən dəqiq məlumatlar elə ərəbdilli əsərlərdə qorunub saxlanılmışdır. Görkəmli ərəb alimi Hüsnü el-Hariri özünün "Al-Mevsuatü'l-Arabiyye" adlı əsərində Səfiəddin Urməvinin Azərbaycandan olduğunu yazır [7, 943-944]. Musiqiçi alimin etnik mənşəyi ilə bağlı isə ən dəqiq məlumata ərəb alimi Abbas al-Azzavinin İraq ərazisindəki türkman musiqiçilərinə də yer verdiyi "Al-Musika-i Iraqiyye fi-ahtil – Mogul ve-t Turkman" əsərində rast gəlinir. O, bu əsərdə S.Urməvinin adını türkman mənşəli musiqiçilərin adları ilə birlikdə çəkir [8, 22-34].

Təhsil almaq üçün vətəni Azərbaycanı tərk edən Səfiəddin Urməvi Bağdada gəlmiş və orada Müstansiriyyə mədrəsəsində elmə və musiqiyə yiyələnmiş və öz məşhurluğunu da elə burda əldə etmişdir. Burada ərəb dilinə mükəmməl yiyələnən musiqiçi eyni zamanda xəttatlıqla da məşğul olub və bu elmin də sirlərini mənimsəmişdir. Həmçinin, bir sıra dünyəvi və dini elmlərə

yiyələnən görkəmli alimimiz, həm də, musiqi nəzəriyyəsini və musiqilərin müxtəlif alətlərdə icrasını da öyrənmişdi. Onun gözəl xəttat olması xəlifə Mötəsimin nəzərindən qaçmamış və təqdir edilmişdi [5, 227-229].

Müxtəlif musiqi alətlərində, xüsusi ilə də ud alətində peşəkar ifa edən Səfiəddin Urməvi eyni zamanda nüzhə və muğni adlı iki yeni musiqi aləti də ixtira etmişdi. İfası Xəlifə tərəfindən bəyənilən S.Urməvi saray məclislərindəki yığıncaqlarda həm ifa edir həm də saray çalğıçılarına müxtəlif musiqi dərsləri keçirdi [3, 349; 5, 229].

Həyatının bir qismi ərəb xəlifələri dövrünə düşsə də, o, eyni zamanda Elxanilər dövründə də yaşamış, Bağdad yürüşü zamanı Hülakü xanla görüşmək imkanı əldə etmiş və onun etibarını qazanmışdır [5, 27]. Səfiəddin Urməvi həmçinin Bağdad kitabxanasının və bir çox elm adamının xilas olmasında böyük rola malik olmuş, hətta, Nəsrəddin Tusinin Bağdad qırğını ilə əlaqəli qınaq dolu məktubunu Hülakü xana məhz o apararaq təqdim etmişdir [9, 556].

Cüveynilər zamanında həddən artıq diqqət və qayğı görən hətta, Şəmsəddin əl-Cüveyninin övladlarının tərbiyəsi ilə məşğul olan Səfiəddin Urməvi Cüveynilərin çökməsi ilə sıxıntılı anlarla üzləşdi. 300 dinarlıq bir borc üzündən məhkumluq həyatı yaşayan alimimiz hicri tarixlə 693-cü ildə (28 yanvar 1294-cu il) Bağdad şəhərində haqqın rəhmətinə qovuşdu [13, 479].

Sələfləri İbn Sina və Fərabidən fərqli olaraq o musiqi üzrə tərcümələrlə məşğul olmayaraq oktavaya əlavə səslər gətirdi və notları əbcəd sisteminə uyğun olaraq nizamladı və beləliklə musiqi nəzəriyyəsində təməl bir çığır açmış oldu [6, 309-311]. Hətta XVI əsrin sonlarına kimi musiqi nəzəriyyəsi sahəsində alimlər yalnız onun əsərlərindən istifadə edirdilər [10, 313].

Onun dövrümüzə qədər bir necə əsəri gəlib çıxmışdır. Bu əsərlərdən ən məşhuru və N.Tusinin tövsiyəsi ilə yazılmış "Kitab ül-Ədvar" əsəridir. Musiqi nəzəriyyəsinə aid olan bu əsər əsrlərlə musiqiçi alimlərin əsas qaynaq mərkəzi olmuşdur [14]. Səfiəddin Urməvi öz əsərində 12 muğam şöbəsi (ingilisdilli ədəbiyyatda "parda" kimi yer alır və hazırda Azərbaycan musiqişünaslığında da şöbələr pərdə adlanır) və 6 təsnifin (ingilisdilli ədəbiyyatda "awaz" kimi yer alır) adını çəkir. E.Neyubaver "Mərkəzi Asiya Sivilizasiyaları tarixi" adlı jurnalda bu muğamların və təsniflərin adlarını çəkir. Həmin muğamlar aşağıdakılardır: Uşşaq, Nəva, Abu Saliq, Rast, İraq, İsfahan, Zirəfkənd, Bozurq, Zəngulə, Rahavi (müasir formada Rahab), Hicazi (müasir dövrdə Hicaz). Həmin araşdırmada adı çəkilən təsniflərin isə adları bunlardır: Qardaniyyə, Qavaşt, Novruz, Maye, Şahnaz, Salmaq. Avropalı müəllif eyni zamanda bu muğam və təsniflərin adlarının sadəcə farsca olmadığını, eyni zamanda ərəbcədə adlara rast gəldiyini də vurğulayır [4, 597]. Səfiəddin Urməvinin digər məşhur əsəri isə "er-Risalət üş-Şərəfiyyə" əsəridir ki, bu əsər də musiqiyə aiddir və bir öncəki kitabın genişləndirilmiş variantıdır [13, 479].

Səfiəddin Urməvinin əsas davamçılarından biri də Azərbaycanın görkəmli musiqiçisi olan Əbdülqadir Marağayi bin Qayibidir. Onun doğum tarixi ilə bağlı istər ingilisdilli tarixşünaslıqda, istərsə də yerli və Şərq tarixşü-

naslığında ziddiyyətli məlumatlar yer alır. Ümumiyyətlə, Əbdülqadir Marağayinin həyatı ingilisdilli tarixşünaslıqda Səfiəddin Urməvi qədər tədqiqata cəlb olunmamışdır [15, 242-248] Onun doğum tarixi ilə bağlı ziddiyyətə gəldikdə isə bütün tədqiqatçıların istinad etdiyi sadəcə bir dəqiq tədqiqat əsəri mövcuddur ki, bu da Məhəmmədəli Tərbiyyətın "Danişməndani - Azərbaycan" kitabıdır. Bu araşdırmaya əsasən Əbdülqadir Marağayi hicri 754-cü ildə (1353-cü il) Cənubi Azərbaycanın Marağa şəhərində anadan olmuşdur. Onun Azərbaycanın məşhur misiqiçilərindən biri olan Qiyasəddin Qayibinin oğlu olduğu haqqında məlumatlar vardır [10, 88].

Daha sonra Təbrizə gələn Əbdülqadir Marağayi burada atasından almış olduğu musiqi biliyini təkmilləşirdi və öz musiqi istedadı ilə bütün Azərbaycanda, eləcə də Mərkəzi Asiyada və Yaxın Şərqdə məşhurlaşdı. Cəlayir hökmdarı Şeyx Üveysin sarayına gələndən sonra əsərlərinin əsas hissəsini məhz burda yaratdı. Əvvəl Şeyx Üveysin ardından da onun oğlu Sultan Cəlaləddin Hüseynin zamanında sarayda yaşadı və hörmətlə yanaşıldı. Daha sonralar, Teymurun hücumları zamanı Bağdada oradan da Misirə gedən alimimiz, Teymurun əmri ilə Səmərqənd şəhərinə aparıldı. Ömrünün son illərini Heratda Sultan Şahruxun sarayında keçirdi və 1435-ci ildə vəfat etdi [13, 243; 15, 242-24].

Onun "Came əl-Əlhan" və "Şərh-e Ədvar" əsərləri musiqiyə həsr olunmuş qiymətli əsərlər sırasındadır. Musiqi nəzəriyyəsinə aid olan və 1405-ci ildə qələmə alınan "Came əl-Əlhan" əsəri müqəddimə 12 fəsil və xətm hissələrindən ibarətdir. O, "Şərh-e Ədvar" adlı əsərində Səfiəddin Urməvinin "Kitab ül-Ədvar" adlı əsərini şərh etmişdir. Bunlardan başqa, digər musiqiyə aid olan, lakin hələ də heç bir nüsxəsi əldə olunmamış əsərləri də vardır [13, 244; 15, 246-248].

Əbdülqadir əl-Marağayi ilk dəfə olaraq Azərbaycan muğamlarını təsnif etmiş 12 əsas məqamdan 24 törəmə şöbələr yaratmışdır. Bir çox musiqi əsərləri yazmış eləcə də musiqilərə mətn tərtib dən Əbdülqadir əl-Marağayi eyni zamanda 20 yeni ritmin də müəllifidir. Bütün bu xüsusiyyətləri ilə yanaşı görkəmli musiqişünasımız Azərbaycan türkcəsində də şeirlər yazırdı [3, 350].

Azərbaycan musiqi tarixində dərin izlər qoymuş Səfiəddin Urməvi və Əbdülqadir əl-Marağayinin əsərləri araşdırıldığında XIII-XIV əsrlərdə necə heyrətamiz bir mədəniyyətə sahib olduğumuz açıq-aydın formada görünür. Həmçinin o da aydın olur ki, ingilisdilli tarixşünaslıqda bu məsələ kompleks şəkildə araşdırılmasa da, musiqiçi alimlərin həyatının və onların əsərlərinin ayrı-ayrı araşdırılma səviyyəsi qənaətbəxşdir. Lakin Avropa tədqiqatçıları bu məsələlərə heç birmənalı yanaşmırlar. Azərbaycan mədəniyyəti tarixinin XIII-XIV əsr dövrü zəngin olduğu qədər də maraqlıdır və çoxsahəli araşdırma tələb edir.

**ƏDƏBİYYAT**


1. A History of Persia. By P. M. Sykes. In two volumes. Vol II. London, Macmillan and co. Limited Martins' street, 1915, 565 p.
2. The Cambridge History of Iran. In eight volumes. Vol 5.edited by J. A. Boyle. Cambridge, Cambridge University press, 1968, 709 p.

3. Azərbaycan Tarixi. Uzaq keçmişdən 1870-ci illərə qədər. Prof. S. S. Əliyarlının redaktəsi ilə. Bakı: 2009, 861 s
4. E. Neubauer, "Music in the Islamic Environment" in Clifford Edmund Bosworth, M. S. Asimov, "History of Civilizations of Central Asia, Volume 4, Part 2", Banarsidass Publication., 2003, 745 p.
5. Henry G. Farmer, A History of Arabian Music, London 1929, 666 p.
6. A. Shiloah. The Theory of Music in Arabic Writings, München 1979, 512 p.
7. Hüsnü el-Hariri. el-Mevsuatü'l-Arabiyye I cild. Dəməşq, 1998, 1056 s.
8. Abbas al-Azzavi. Al-Musika-i Iraqiyye fi-ahtil – Mogul ve-t Turkman. Bağdad: 1951, 346 s.
9. İbnü'l-Fuvatî, Telhîşu Mecmaai'l-âdâb (nəşr. Mustafa Cevâd), X cild. Dəməşq: 1965, 690 s.
10. Məhəmmədəli Tərbiyyət. Danişməndani - Azərbaycan. Bakı: Azərnəşr, 1987, 434 s.
11. E. Neubaer, "Music in the Islamic World", in Clifford Edmund Bosworth, M.S.Asimov, "History of Civilizations of Central Asia, Volume 4, Part 2", pg 596.
12. Türkiye Diyanet Vakfi. İslam Ansiklopedisi. 1 – 44-cü ciltler. Cilt 1. İstanbul: TDV, 1988, 557 s.
13. Türkiye Diyanet Vakfı. İslam Ansiklopedisi. 1 – 44-cü ciltler. Cilt 35. İstanbul: TDV, 2008, 587 s.
14. "Cultural Authority and Authenticity in the Turkish Repertoire," Walter Feldman, Asian Music, Vol. 22, No. 1. (Autumn, 1990 - Winter, 1991), pp. 73-111
15. H. G. Farmer, " Abd al-Qadir ibn Gaibi on Instruments of Music", Orients, XV, Leiden 1962, p. 242-248.

## МУЗЫКАЛЬНАЯ ИСТОРИЯ АЗЕРБАЙДЖАНА В XIII - XIV ВЕКОВ
## (по англоязычной историографии)

**Б.Н.ГУЛИЕВ**

### РЕЗЮМЕ

В представленной статье изучены сведения истории Азербайджанской музыки в XIII - XIV веков. Разные ветви Азербайджанской культуры особенно музыка, развивались в этот период. Сафиаддин Урмави сочинил разные песни и музыку. Он также основал музыкальную теорию и создал два новых музыкальных инструмента, которые называются нузха и муг'ни. Известный азербайджанский музыкант Абдулгадир Мараги систематизировал азербайджанский мугам.

**Ключевые слова:** культура Азербайджана, Сафиаддин Урмави, Абдулгадир Мараги

## MUSIC HISTORY OF AZERBAIJAN IN XIII – XIV CENTURIES
## (on the basis of the English language historiography)

**B.N.GULIYEV**

### SUMMARY

The paper deals with the history of Azerbaijani music in the XIII – XIV centuries. Different branches of the Azerbaijani culture, especially music developed in this period. Different types of music and songs were composed by Safi al-Din al-Urmawi. He also established the theory of music and discovered two new musical instruments as Nuzkha and Mughni. The prominent Azerbaijani musician, Abd al-Qadir Maraghi classified Azerbaijani mughams.

**Key words:** Azerbaijani culture, Safi al-Din al-Urmawi, Abd al-Qadir Maraghi